No: 02 2026
https://doi.org/10.64400/ea26-02-12
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# UŞAQ MƏTBU İRSİMİZİN "QIRMIZI GÜNƏŞ"İ

**Fərqanə MƏLİKOVA**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif*: melikova8689@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 06.06.2026
*Nəşr edilmə tarixi:* 25.06.2026

**Açar sözlər:**
uşaq mətbuatı, Qırmızı günəş, Dəbistan, Azərbaycan maarifçiliyi, pedaqoji jurnalistika, məktəbdənkənar oxu, XX əsrin əvvəllərində

**XÜLASƏ**
Tədqiqat işində XX əsrin əvvəllərində Azərbaycan uşaq mətbuatının inkişaf mərhələləri və bu prosesdə "Qırmızı günəş" jurnalının xüsusi rolu araşdırılır. Göstərilir ki, ilk milli uşaq mətbuat orqanı olan "Dəbistan" jurnalının yaratdığı pedaqoji ənənə sonrakı dövrdə "Rəhbər", "Məktəb" və "Qırmızı günəş" kimi nəşrlərlə davam etdirilmişdir. Tədqiqatda 1921–1922-ci illərdə cəmi üç nömrəsi nəşr olunan "Qırmızı günəş" jurnalının tarixi şəraiti, ideya istiqaməti, məramnaməsi, tərtibat xüsusiyyətləri, müəllif çevrəsi və məzmun strukturu kompleks şəkildə təhlil olunur. Jurnalın səhifələrində yer alan bədii, elmi-kütləvi, publisistik və didaktik materiallar əsasında onun uşaqların təlim-tərbiyəsində, məktəbdənkənar oxu mədəniyyətinin formalaşmasında və milli maarifçilik ideyalarının yayılmasında rolu müəyyən edilir. Həmçinin Qafur Rəşad Mirzəzadə, Abdulla Şaiq və digər ziyalıların fəaliyyəti fonunda jurnalın ideoloji və pedaqoji funksiyası qiymətləndirilir. Araşdırma nəticəsində məlum olur ki, qısa müddətli fəaliyyətinə baxmayaraq "Qırmızı günəş" Azərbaycan pedaqoji uşaq mətbuatının inkişafında mühüm mərhələ təşkil etmiş və milli təhsil tarixində əhəmiyyətli maarifçi platforma kimi çıxış etmişdir. Bu baxımdan jurnalın tarixi-pedaqoji əhəmiyyəti xüsusi elmi dəyər daşıyır və gələcək tədqiqatlar üçün mühüm mənbə rolunu oynayır. Məqalə uşaq mətbuatının formalaşma dinamikasını anlamaq baxımından mühüm nəzəri nəticələr təqdim edir və milli maarifçilik tarixini daha yaxşı aydınlaşdırmağa kömək edir.

## GİRİŞ

XX əsrin əvvəlləri uzun mübarizədən sonra mədəni-maarif sahəsindəki yeniliklərdən biri də pedaqoji uşaq mətbu orqanlarının əsasının qoyulması idi. Belə ki, 1906-cı il ilk uşaq nəşri olan "Dəbistan" özündən sonra pedaqoji uşaq mətbuatı ənənəsinin əsasını qoydu, ardınca "Rəhbər", "Məktəb" kimi jurnallar nəşr edildi. Nəriman Nərimanov, Həbib bəy Mahmudbəyov, Əliisgəndər Cəfərzadə, Mahmud bəy Mahmudbəyov, Qafur Rəşad Mirzəzadə və başqa ziyalılarımız kiçikyaşlıların təlim-tədris istiqamətli mətbuata zərurətin nəticəsi kimi nəşrlərin davamlılığına çalışırdılar. "Rəhbər", "Məktəb" jurnalının fəaliyyəti dayanandan sonra ard-arda uşaq mətbu orqanları nəşr olundu.

XX əsrin əvvəlləri uşaqları dərsdən sonra qalan vaxtlarını faydalı keçirmək, dərs prosesi ilə yanaşı keçirilmiş proqramın asan qavranılması üçün pedaqoji yanaşma ilə çıxış edən "Qırmızı günəş" məcmuəsi "Cümlə cahan füqəreyi-kasibəsi, birləşiniz! şüarı nəşr olunmağa başladı. "1921-ci ildə nəşr olunub, iki həftədə bir dəfə çıxan "Qırmızı günəş" məcmuəsi də "Məktəb"in ənənələrini davam etdirir. Təsadüfi deyil ki, onun redaktoru olan Ağabəy İsrafilbəyov, iştirakçıları həmin jurnalın müəlliflərindən Abdulla Şaiq, Camo Cəbrayılbəyılbəyli, Kərim İsmayılzadə və başqaları idi" (Məmmədov, 1977).

## MATERİAL VƏ METODLAR

Jurnal Azərbaycan Mərkəzi Mətbuat İdarəsi Birinci hökumət mətbəəsində nəşr olundu. Cəmi 3 nömrəsi çıxan jurnalın hər nömrəsi "Məktəb çocuqlarına məxsus, iki həftədə bir nəşr olunan əxlaqi, ədəbi, fənni, müsəvvər məcmuədir" başlığı ilə başlanırdı. Jurnalın qiyməti 5000 rublə və hər nömrəsi 16 səhifə həcmində idi. Ayda 2 dəfə çıxırdı, uşaqlara məxsus əxlaqi, ədəbi, fənni, şəkilli müsəvvər (şəkilli) jurnal kimi qeyd edilsə də digər uşaq mətbu orqanları kimi maddi vəziyyətdən rəngsiz çıxırdı. Ümumiyyətlə, "Dəbistan" və "Məktəb"dən fərqli olaraq uşaqların maraq dairəsinə uyğun jər bir materialı əks etdirən şəkillərdən istifadə edilməmişdir. Materiallar iki sütuna bölünür, ortadan xətlə bir birindən ayrılırdı. İlk nömrədə jurnalın şüarı, ünvanı, mündəricat və "İxtar" (xəbərləmə) bölməsi

verilmişdir. Jurnalın redaktoru, naşiri göstərilməmiş, hər nömrənin sonunda "Azərbaycan Mərkəzi Mətbuat İdarəsi" sözü yazılmış, görünür, ziyalılarımızın səyi nəticəsində ərsəyə gələn məcmuə olmuşdur. "Məcmuədə redaktorun və məsul şəxslərin adı göstərilməsə də, "Qırmızı günəş"in Azərbaycan Xalq Maarif Komissarlığında işləyən, mətbuat işlərindən xəbərdar olan bir qrup ziyalı tərəfindən nəşr olunduğu üzə çıxır" (Modern.az, 2011).

Tərtibat xüsusiyyətini "Dəbistan" və "Məktəb" jurnalından mənimsəmişdi. Jurnal yerləşdiyi idarə Bakı, Merkuryevskaya küçədə, 20 nömrəli evdə, təlimat və istixbarat şöbəsində yerləşdiyi qeyd edilirdi. "İxtar" adlı hissədə isə deyilirdi: "Hörmətli mühərrir arqadaşlardan məcmuəmizə yazdıqları məqalələri kağızın bir yüzündə və açıq bir xətlə yazmalarını rica edəriz".

Jurnalın ilk nömrəsi "İdarə" imzası ilə "Əziz uşaqlar!" sərlövhəli uşaqlara müraciətlə başlanırdı. Məramnamədə bildirilir ki, uşaqların tərəqqisi yalnız məktəbdə keçirilən dərslərlə deyil eyni zamanda faydalı kitab və məcmuələrin mütaliəsində görülür. Neçə vaxtdı məcmuəsiz qalan uşaqları düşünərək, məktəbdən sonra mütaliə həm də məktəblilərin dərsdə oxuduqları qaranlıq məqamları məhz "Qırmızı günəş" vasitəsilə öyrənə biləcəklərini bildirmişdir: "Burası aşkardır ki, sizə məktəbdə dərs oxumaq lazım olduğu kibi, məktəbdən sonra mütaliyə etməyə də ehtiyacınız vardır. Bu ehtiyacınızı rəf etməyə "Qırmızı günəş" məcmuəsi cani dildən çalışaraq məlumatınızın genişlənməsinə, fikrinizin yüksəlməsinə səy edəcəkdir. Burasını biliniz ki, sinifdə oxuduğunuz dərslərin qaranlıq guşələrini "Qırmızı günəş" sizdən ötrü işıqlandırmağa çalışacaqdır, getdiyiniz yolu aydınlaşdırıb qaranlıqdan sizi mühafizət etməyə səy edəcəkdir" (Qırmızı günəş, 1921a). Məramnamənin sonunda isə məcmuədə hər hansı anlaşılmaz məqamlarda idarəyə məktub göndərərək soruşmaqları bildirilir.

Jurnalın ətrafına "Məktəb" jurnalının fəal əməkdaşları olan A.Şaiq, Cəmo bəy Cəbrayılbəyli, Ağabəy İsrafilbəyli, B. Mürşid, Əbdürrəhman Dai, Turanlı, Nəcimi və başqaları toplaşmışdı. Hər üç nömrədə də çıxış edən Qafur Rəşad Mirzəzadə "Məşhur adamları tanıyalım" yazısı ilə Mirzə Ələkbər Sabir, Mirzə Fətəli Axundov, Mirzə Abbasqulu Səhhətin yaradıcılığına geniş və ətraflı şəkildə toxunmuşdur. Qeyd edək ki, Səhhət hər üç jurnalın fəal əməkdaşı idi. Səhhətin həyat və yaradıcılığı, ölümü haqqında məmumatı Q.Rəşad "Qırmızı günəş" qəzetinin 1-ci nömrəsində vermişdir. Nədənsə redaktoru olan "Məktəb" jurnalında Q.Rəşad Səhhətin 1918-ci il ölümü haqqında heç bir məlumat verməmişdir.

Cəmi üç nömrə çıxmağına baxmayaraq jurnal təlim, tədris prosesinə, uşaqların maraq dünyasına uyğun müxtəlif elmi və bədii materiallarla zəngin idi. Hər üç nömrənin mündəricatını təqdim edirik:

№1, Mündəricat

1) İdarə, "Əziz uşaqlar!"
2) Q. Rəşad, "Məşhur adamları tanıyalım"
3) müəllim Cəmo bəy Cəbrayılbəyli, "Şaxta baba"
4) Nəcimi, "Cənnət quşu"
5) Turanlı, "Sənmi tikdirdin, babandanmı qaldı?"
6) İbrahim Mürtəza, "Bir yetim məsumun fəryadı"
7) Ağabəy, "Tənbəl kosa"
8) müəllim İsrafilbəyli, "Hadı! Can, Budu!"
9) "Hikmət çiçəkləri"
10) Kərim İsmayılov, "Balaca meymun"
11) Seyidzadə Bədrəddin, "Günəşmi, çocuqmu?"
12) Qədirli, "Xərçəng"
13) Şaiq, "Dərdləşmə"
14) Şərif İlhami, "Mələklə növzad" (Qırmızı günəş, 1921a).

№2, Mündəricat

1) İdarə, "Məşhur adamları tanıyalım"
2) Kərim İsmayılzadə, "Təcrübəli bağban"
3) müəllim Ağabəy İsrafilbəyli, "Anqıran meymun"

4) Nəcimi, “Hacıleylək yuvasına nə daşıyor?”
5) Məhəmmədzadə Mirzəbala, “Cənnət quşu”
6) Ülvi, “Ata və annənizdən izinsiz heç bir yerə getməyiniz!”
7) “Hikmət çiçəkləri”
8) Sufi Şeyda, “Nağıl”
9) müəllim Cəmo Cəbrayılbəyli, “Şahmarın iskələyə getməsi”
10) Abdulla Şaiq, “Quşlar ölkəsi” (Qırmızı günəş, 1921b).

№3, Mündəricat
1) İdarə, “Mirzə Fətəli Axundov”
2) Ağabəy İsrafilbəyli, “Elastiki top haqqında”
3) Nəcimi, “Qazların köçməsi”
4) Hüseynbəyli, “Ceyran və tülkü”
5) Abdulla Şaiq, “Quşlar ölkəsi”
6) B. Mürşid, “Dəvə əti”
7) Cəmo Cəbrayılbəyli, “Şahmarın iskələyə getməsi”
8) “Hikmət çiçəkləri”
9) Əbdürrəhman Dai, “Bülbül diyor”
10) Əli Cəbrayılzadə, “Yaşamaq üçün nə etməli”
11) M.Ə. Nəcəfzadə, “Fərasətli çocuqlara töhfə”
12) S. oğlu M., “Yoldaş, gəl!”
13) İdarə, “Məsələlər” (Qırmızı günəş, 1921c).

Hər üç nömrədə də verilmiş “Hikmət çiçəkləri” başlıqlı xalq yaradıcılıq nümunələri ibrətamiz məsəllərlə məktəblilərin sevimli rubrikasına çevrilmişdir:

“İki söz vardır ki pək doğrudur: həris məhrumdur, hasid məğmumdur”.
“Cahil nəfsinin düşmənidir, başqasının nasıl dostu ola bilir?!”
“Həmaqət civə kibidir: mütləq bir aralıq bulur, meydana fırlar”.
“Əksəriyyət arpaya bənzər: təkinin qiyməti yoqkən çoqu bir araya gəlincə qiymətlənir”.
“Yalancıda kəramət, həsədcidə rahət olmaz” (Qırmızı günəş, 1921b).
“Aqil bildiyini söyləməz, dəli söylədiyini bilməz”.
“Böyük hikmətlər qısa sözlərdə bulunur”.
“Məşvərətə ehtiyac görməyən kimsə insan deyildir”.
“Kişi yorğanına görə ayağını uzatmalıdır”.
“Ac qalmaq borclu olmaqdan eyidir”.
“Çalışmaq ən ziyadə nəf verən bir ticarətdir” (Qırmızı günəş, 1921c).

“Dəbistan” və “Məktəb” jurnalında olduğu kimi “Qırmızı günəş” jurnalının yalnız 3-cü nömrəsində uşaqları zehni əyləndirən materialları görmək olar. Belə ki, “Çocuq əyləncələri” başlıqlı bölmədə lətifələr, “Yazı dərsi”, “Məsələlər” zehni və əqli qavrayışı yüksəldən materiallar verilmişdir. “Yazı dərsi” rubrikasında şagirdlərə tapşırıqlar verilir, yazını yaxşı yazıb idarəyə göndərənlərin isə yazısının öz adı ilə məcmuədə dərc ediləcəyi bildirilirdi. “Nəhrlərin insana olan faydasını yazınız” adlı tapşırıqda qeyd olunurdu: Yazı dərsini hər kəs yaxşı yazarsa, onun yazısı öz imzasıyla məcmuəmizdə dərc ediləcəkdir”

“İdarə” imzası isə verilmiş məsələlər isə bildirilirdi: “Bu məsələlərin hər ikisini dürüst həll edib idarəmizə göndərən şagirdlərin adları məcmuəmizdə yazılacaqdır və bunlardan qürrə ilə birinə iki məcmuəmiz məccanən göndəriləcəkdir. Məsələlərin həlli məcmuəmiz çıxan tarixdən on beş günə qədər qəbul olunacaqdır” (Qırmızı günəş, 1921c).

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Jurnalda əsasən bədii materiallarla zəngin idi. Kiçikhəcmli hekayə və şeirlər dövrün tanınmış pedaqoq, müəllim, ziyalılarının qələminə məxsus olduğundan tərbiyəvi-əxlaqi məzmun kəsb edirdi. Ülvi təxəlüssü ilə çıxış edən ziyalının “Ata və annənizdən izinsiz heç bir yerə getməyiniz!”,

M.Ə.Nəcəfzadə "Fərasətli çocuqlara", "Fərasətli çocuqlara töhfə" kimi hekayələri tərbiyələndirici xarakter daşıyırdı. "Ata və annənizdən izinsiz heç bir yerə getməyiniz!" hekayəsində valideynlərindən icazəsiz meşəyə odun yığmağa gedən Əhməd qaranlıq düşüncə yolu azması və qorxmasından danışılır. İbrətamiz ifadə olaraq uşaqlara belə aşılanır: "*Çünki bir çocuq yapacağı işi heç bir zaman annəsindən gizləməməlidir: gördüyü iş yaxşı iş də olsa, yenə xəbər verməlidir"*

Nəciminin "Cənnət quşları" haqqında maraqlı məlumatı, "Qazların köçməsi" adlı kiçikhəcmli hekayəsi ovçu və qazların inadı haqqında maraqlı hekayədir. Jurnalda uşaqları qoçaqlığa, əməyə, tədrisə meyil edən materiallar, şeirlərə də yer verilmişdir. M.Ə.Nəcəfzadənin "Fərasətli çocuqlara töhfə" şeirində yol içində oynayan uşaqlar şahı görəndə qaçır. Lakin bir uşaq qaçmır, şah səbəbini soruşanda isə qaçmağı üçün heç bir günah və qorxusunun olmadığını bildirir. Şahın uşağın bu cavabından xoşu gəlir və atasından onu oxutmaq üçün saraya dəvət edir, uşaq oxuyur və böyük xaqan olur.

*Atasına onun verib xələt,*
*Çocuq üçün də həm alıb rüxsət,*
*Gətirib şəhrə ta ki elm oqusun,*
*Əqlinin müşkü sürtülüb qoqusun.*
*Hər tərəfdən ədiblər gətirib,*
*Səy ilə ona dərsi-elmi verib.*
*O çocuq bir zaman dolanı,*
*Oquyub ta ki oldu Xaqani* (Qırmızı günəş, 1921c).

Seyidzadə Bədrəddinin "Günəşmi, çocuqmu?" adlı şeirində uşaqların məsumluğunu vəsf edir, məktəbliləri nur saçan günəşə bənzədir və onları məktəbə, elmə çağırır:

*Dünyamızın sevimli bir mələyi*
*Əldə çanta məktəbinə gedərkən*
*İşıqlatır hər bir yeri gün təki*
*Elmə, fənnə, dərsə rəğbət edərkən.*
*Bütün vətəndaşlar alır tərbiyət*
*Şu mələkdən insanlığı, bilişi.*
*Demək, dünyamızın bir də, həqiqət,*
*Məktəblilər, çocuqlarmış günəşi* (Qırmızı günəş, 1921a).

Bundan əlavə "Çocuq əyləncələr" rubrikasında isə "Yoldaş gəl" başlıqlı materialda müxtəlif oyunlar haqqında məlumat verilirdi. Abdulla Şaiq "Quşlar ölkəsi" adlı hekayəsi, "Dərdləşmə" adlı şeirlə ilə çıxış etmişdir. Şeirdə 2 qardaşın anasının hər gecə göz yaşı tökməsi və sonunda Əhmədin balaca qardaşı ilə dərdləşərkən atalarının ölüm xəbərinin verməsi ilə bitir. Jurnalın sonuncu 3-cü nömrəsi 1922-ci ildə çıxır və nəşri dayanır. Davamlı məqalələr isə "bitmədi", "Mabədi var" kimi qeyd edilirdi. Sonuncu nömrədə də bir çox materiallar "davamı var" yazılsa da jurnal fəaliyyətini birdəfəlik dayandırdı. Görünür jurnal fəaliyyətini davam etdirmək niyyətində idi amma maddi sıxıntılar imkan vermir.

## NƏTİCƏ

Nəticə etibarilə, XX əsrin əvvəllərində Azərbaycan mədəni-maarif mühitində pedaqoji uşaq mətbuatı mühüm maarifləndirici vasitə kimi formalaşdı. "Dəbistan", "Rəhbər", "Məktəb" kimi nəşrlərin yaratdığı ənənə "Qırmızı günəş" məcmuəsi ilə davam etdirilərək uşaqların təlim-tərbiyəsində sinifdənxaric oxu materiallarının rolunu gücləndirdi. Jurnal qısa müddət fəaliyyət göstərsə də, bədii və elmi-publisistik materialları ilə uşaqlarda əxlaqi dəyərlərin formalaşmasına, milli maarifçilik ideyalarının yayılmasına xidmət etdi. Ziyalıların iştirakı onun ideya-məzmun zənginliyini artırdı. Nəticədə, "Qırmızı günəş" Azərbaycan uşaq mətbuat tarixində maarifçilik xəttinin davamçısı kimi əhəmiyyətli yer tutdu və pedaqoji fikir tarixində iz buraxdı.

## ƏDƏBİYYATLAR


Qırmızı günəş. (1921a). Əziz uşaqlar. Qırmızı günəş, (1), 3.

Qırmızı günəş. (1921a). Günəşmi, çocuqmu? (şeirdən sitat hissəsi daxil olan mətn). Qırmızı günəş, (1), 14.

Qırmızı günəş. (1921a). Günəşmi, çocuqmu?. Qırmızı günəş, (1), 10.

Qırmızı günəş. (1921a). Mələklə növzad. Qırmızı günəş, (1), 1.

Qırmızı günəş. (1921a). Mündəricat. Qırmızı günəş, (1), 1.

Qırmızı günəş. (1921a). Mündəricat. Qırmızı günəş, (1), 3.

Qırmızı günəş. (1921b). Hikmət çiçəkləri. Qırmızı günəş, (2), 11.

Qırmızı günəş. (1921b). Mündəricat. Qırmızı günəş, (2), 1.

Qırmızı günəş. (1921b). Yazı dərsi. Qırmızı günəş, (2), 16.

Qırmızı günəş. (1921c). Fərasətli çocuqlara töhfə. Qırmızı günəş, (3), 12.

Qırmızı günəş. (1921c). Hikmət çiçəkləri. Qırmızı günəş, (3), 11.

Qırmızı günəş. (1921c). Məsələlər. Qırmızı günəş, (3), 16.

Qırmızı günəş. (1921c). Mündəricat. Qırmızı günəş, (3), 1.

Qırmızı günəş. (1921c). Şeirlər və hekayə parçaları (Fərasətli çocuqlara töhfə daxil). Qırmızı günəş, (3), 15.

Məmmədov, Ə. (1977). Azərbaycan uşaq ədəbiyyatı ("Dəbistan", "Rəhbər", "Məktəb" jurnalları əsasında). Elm.

Modern.az. (2011). Mətbuat tariximizin "Qırmızı günəş" araşdırması. https://modern.az/az/media/19066/metbuat-tariximizin-quotqirmizi-gunesquoti-arasdirma/


## ABSTRACT

## THE "QIRMIZI GÜNƏŞ" OF OUR CHILDHOOD AND PRINT HERITAGE


**Fergana Malikova**
**Baku Slavic University, Baku, Azerbaijan**



This study examines the developmental stages of Azerbaijani children's press in the early twentieth century and the special role of the journal *"Qırmızı günəş"* in this process. It is shown that the pedagogical tradition established by the first national children's publication, *"Dəbistan"*, was subsequently continued by journals such as *"Rəhbər"*, *"Məktəb"*, and *"Qırmızı günəş"*. The research provides a comprehensive analysis of the historical context, ideological orientation, editorial principles, design features, authorial circle, and content structure of *"Qırmızı günəş"*, which was published in only three issues between 1921 and 1922. Based on literary, scientific-popular, journalistic, and didactic materials published in the journal, its role in children's education, the formation of extracurricular reading culture, and the dissemination of national enlightenment ideas is identified. Furthermore, the pedagogical and ideological functions of the journal are evaluated in the context of intellectuals such as Gafur Rashad Mirzazade and Abdulla Shaig. The findings indicate that despite its short publication period, *"Qırmızı günəş"* represented an important stage in the development of Azerbaijani pedagogical children's press and served as a significant enlightenment platform in national educational history. The study provides important theoretical conclusions for understanding the dynamics of children's press development and contributes to a deeper interpretation of national enlightenment history.



***Keywords:*** *children's press, Qırmızı günəş, Dəbistan, Azerbaijani journalism, pedagogical press, enlightenment, early twentieth century*

## РЕЗЮМЕ

## "QIRMIZI GÜNƏŞ" НАШЕГО ДЕТСТВА И ПЕЧАТНОГО НАСЛЕДИЯ

**Фергана Маликова**
**Бакинский славянский университет, Баку, Азербайджан**

В данном исследовании рассматриваются этапы развития азербайджанской детской печати в начале XX века и особая роль журнала «Qırmızı günəş» в этом процессе. Показано, что педагогическая традиция, заложенная первым национальным детским изданием «Dəbistan», была продолжена такими журналами, как «Rəhbər», «Məktəb» и «Qırmızı günəş». В работе комплексно анализируются исторические условия, идеологическая направленность, редакционные принципы, особенности оформления, авторский круг и структура содержания журнала «Qırmızı günəş», который выходил всего в трёх номерах в 1921–1922 годах. На основе художественных, научно-популярных, публицистических и дидактических материалов определяется его роль в образовании детей, формировании культуры внеклассного чтения и распространении идей национального просвещения. Также оцениваются педагогические и идеологические функции журнала в контексте деятельности таких интеллектуалов, как Гафур Рашад Мирзазаде и Абдулла Шаиг. Результаты исследования показывают, что несмотря на краткий период существования, «Qırmızı günəş» стал важным этапом в развитии азербайджанской педагогической детской печати и значимой просветительской платформой в истории национального образования. Исследование формирует важные теоретические выводы для понимания динамики развития детской прессы и способствует более глубокому осмыслению истории национального просвещения.

***Ключевые слова:*** *детская печать, Qırmızı günəş, Dəbistan, азербайджанская журналистика, педагогическая пресса, просвещение, начало XX века*